**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№379/1** **17 sentyabr 2025-ci il**

**Auditor təşkilatlarının və sərbəst auditorların 2025-ci ilin I yarımilliyi üzrə hesabatların toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə hesabata dair**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 1.5-ci "Auditor təşkilatlarının və sərbəst auditorların hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə, Palatanın Auditin təşkili və hesabatlılıq idarəsi (V.Cavadov) tərəfindən 2025-ci ilin I yarımilliyi üzrə hazırlanmış icmal-tövsiyələri müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditor təşkilatlarının və sərbəst auditorların 2025-ci ilin I yarımilliyi üzrə hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması barədə hesabat nəzərə alınsın (əlavə olunur).

2. 2024-cü ilin I yarımilliyi ilə müqayisədə 2025-ci ilin I yarımilliyində ölkə üzrə auditor xidmətinin həcminin 18,7% və ya 9,2 mln manat və orta məbləğin 5,8% və ya 0,9 min manat artması müsbət hal kimi qiymətləndirilsin.

3. 2025-ci ilin I yarımilliyi ərzində ölkə üzrə göstərilmiş auditor xidmətinin həcmi aşağıda adları qeyd olunan auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2024-cü ilin I yarımilliyi ilə müqayisədə müqavilə məbləğinin 50%-dan çox olması qənaətbəxş hesab edilsin və onlara təşəkkür məktublarının göndərilməsi məqsədəmuvafiq hesab edilsin:

Auditor təşkilatları:
- "Analitik-Audit Konsaltinq" MMC (direktor - Qurbanov Abbasəli Şükür oğlu) – 82%
- "Ason Audit" MMC (direktor - Vəkilov Orxan Səbuhi oğlu) – 3,7 dəfə
- "Audit AZ" MMC (direktor - İslamov Adil Nüsrət oğlu) – 64%
- "ATC SERVICES" MMC (direktor - Rzayev Orxan Rza oğlu – 52%
- "Azəruçot" MMC (direktor - Təhməzov Eldar Azay oğlu) – 3,3 dəfə
- "BDO Azərbaycan" MMC (direktor - Salayev Yunis Elxan oğlu) – 77%
- "Biznes Audit" MMC (direktor - Əliyev Məhərrəm Fayaz oğlu) – 69%
- "BKR Konsulting" MMC (direktor - Əliyev Elçin Məmmədəli oğlu) – 53%
- "ENEM-AY AUDIT AND TAX" MMC (direktor - Dövlətov İlkin Abxan oğlu) – 70%
- "EVM Audit and Consulting" MMC (direktor - Bağırov Zamin Əli oğlu) – 3,6 dəfə
- "Davud Mamedov" MMC (direktor - Məmmədov Davud Zahid oğlu) – 4,4 dəfə
- "Delta Audit" MMC (direktor - Səmədov Elnur Əlirza oğlu) – 56%
- "FİNSTAB AUDİT" MMC (direktor - Abbasova Nuranə Şakir qızı) – 56%
- "FOUR REASON" MMC (direktor - Qasımov Vüsal Əlisəfa oğlu) – 2,8 dəfə
- "Global and Legal Audit" MMC (direktor - Qarayev Rüfət Niyazi oğlu) – 2,5 dəfə
- "Himmara Audit" MMC (direktor - Abbaszadə Elnur Vüqar oğlu) – 2,2 dəfə
- "İATC" MMC (direktor - Şükürov Rüfət Kamil oğlu) – 2,7 dəfə
- "İnternational Audit" MMC (direktor - İsmayıllı Zaur Niyazi oğlu) – 2,8 dəfə
- "İnvest Finance" MMC (direktor - Bayramov Anar Qəşəm oğlu) – 71%
- "Macron Group Azerbaijan" (direktor - Yusifov Xosrov Nəsib oğlu) – 61%
- "Moore Stephens Azerbaijan" MMC (direktor - Əhmədov Fariz Nadir oğlu) – 102%
- "NET FİNANCE" MMC (direktor - Əsgərov Aqşin Nəbi oğlu) – 2,1 dəfə

- “NZA Audit” MMC (direktor - Axundov Nihad Nazim oğlu) - 75%
- “Premium-Audit” MMC (direktor - Kərimov Natiq İmran oğlu) - 75%
- “SME Audit” MMC (direktor - Həsənzadə Afiq Alı oğlu) – 2,1 dəfə
- “TİMP” MMC (direktor - Məhərrəmov Orxan Akif oğlu) – 78%
- “UHY Audit” MMC (direktor - Mirzəyev Təbriz Şahin oğlu) - 64%

Sərbəst auditorlar:
- Allahverdiyev Rəşad Camal oğlu – 2,8 dəfə
- Cəfərov Altay Mürsəl oğlu - 54%
- Əlizadə Nail Ələkbər oğlu – 2,5 dəfə
- Gülməmmədov Şirxan Yadigar oğlu – 2,7 dəfə
- İlham Süleyman Süleyman oğlu – 3,8 dəfə
- Tağıyev Vasif İbrahim oğlu – 2,2 dəfə
- Xidirbəyli Cavid Xəlil oğlu – 2,2 dəfə
- Quliyev Elçin Hilal oğlu - 2,1 dəfə

4. 2025-ci ilin I yarımilliyi ərzində ölkə üzrə göstərilmiş auditor xidmətinin həcmi aşağıda adları qeyd olunan auditor təşkilatları və sərbəst auditorlar tərəfindən 2024-cü ilin I yarımilliyi ilə müqayisədə müqavilə məbləğinin 50%-dan az olması qeyri-qənaətbəxş hal kimi dəyərləndirilsin;

Auditor təşkilatları:
- “A.R Audit and Consulting Services” MMC (direktor - Rəsulov Anar Şərif oğlu)-(-77%)
- “Grovv Audit and Consulting” QSC (direktor - Abdurahmanov Orxan Əlisəfa oğlu) – (-65%)
- “Prime Audit and Consaltinq” (direktor - Hacızadə Anar Fuad oğlu) – (-86%)
- “SM Audit and consultinq” MMC (direktor - Axundova Fəridə Abul qızı) – (-53%)

Sərbəst auditorlar:
- Əliyev Yaqub Tofiq oğlu – (-92%)
- Kərimov Şamxal Vəli oğlu – (-70%)
- İsmayılov Səxavət İsmayıl oğlu – (-64%)

5. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki:

5.1. Beynəlxalq Audit Standartlarının, Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tələblərinə uyğun olaraq auditor xidmətlərinin göstərilməsi, öz fəaliyyətlərində şəffaflığın yüksəldilməsi, haqsız rəqabət və dempinq hallarına yol verilməməsi ilə auditə ictimai etimadın artırılmasını təmin etsinlər;

5.2. Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlər”inə riayət etsinlər;

5.3. Auditorlar Palatası Şurasının 2023-cü il 13 aprel tarixli 355/4 nömrəli qərarına əsasən auditor xidmətlərinin göstərilməsinə dair müqavilələrin bağlandıqdan sonra on gün müddətində “Auditorun şəxsi kabineti” sisteminə daxil edilməsini təmin etsinlər və 2025-ci ilin I yarımilliyi ərzində yol verilmiş nöqsan və çatışmazlıqlara gələcəkdə yol verməsinlər.

6. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki:

6.1. 2025-ci ilin I yarımilliyi üzrə məcburi auditdən keçmə səviyyəsinin aşağı olduğu təsərrüfat subyektlərinə - məhdud məsuliyyətli cəmiyyətlərə (46,2%), səhmdar cəmiyyətlərə (74,8%), publik hüquqi şəxslərə (43,5%) xəbərdarlıq məktublarının, o cümlədən, bələdiyyələr (44,0%) və siyasi partiyalar (73,0%) üzrə müvafiq məlumatların iki həftə müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, İqtisadiyat Nazirliyinə, Maliyyə Nazirliyinə, Ədliyyə Nazirliyinə, Mərkəzi Seçki Komissiyasına və Maliyyə Monitorinqi Xidmətinə göndərilməsi təmin edilsin;

6.2. 2025-ci ilin I yarımilliyi ərzində bağlanmış, lakin ləğv olunmuş müqavilələr araşdırılsın və nəticələri barədə Palatanın rəhbərliyinə on gün müddətində arayış təqdim edilsin;

6.3. məcburi audit subyektlərinə illik maliyyə hesabatlarının auditini həyata keçirmələri ilə bağlı elan hazırlanarkən Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədlər”i barədə məlumat əlavə edilsin.

6.4. iki həftə müddətində auditor xidmətinin inkişafına dair məqalə hazırlayıb KİV-də dərc etdirilməsi üçün təqdim etsin;

6.5. Haqsız rəqabətə qarşı mübarizə idarəsi (R.Cəfərli) ilə birlikdə auditor xidmətlərinin göstərilməsinə dair icazəsi olmadan belə fəaliyyətlə məşğul olan hüquqi və ya fiziki şəxslərin aşkarlanması və onlara qarşı müvafiq tədbirlərin görülməsi təmin edilsin;

6.6. bu qərarın 3-cü bəndindən irəli gələn məsələləri həll etsin.

7. Əlaqəli auditor xidmətlərinin növləri üzrə azalmaların səbəbləri araşdırılsın və müvafiq sahələr üzrə xidmət həcminin yüksəldilməsinə dair müddəalar Auditorlar Palatasının 2026-cı il üzrə iş planının layihəsinə daxil edilsin.

8. Dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə iş şöbəsinə (E.Qəmbərov) və səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalarda iştirak edən auditorlara tapşırılsın ki, Auditorlar Palatası Şurasının 2023-cü il 13 aprel tarixli 355/4 nömrəli qərarına əsasən auditor xidmətlərinin göstərilməsinə dair müqavilələrin bağlandıqdan sonra on gün müddətində “Auditorun şəxsi kabineti” sisteminə daxil edilməsi təmin edilsin.

9. Bu qərarın mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**